# Sumqayıtlı gənc musiqiçilər beynəlxalq müsabiqədə mükafatlar əldə ediblər

***Almaniyanın paytaxtı Berlində keçirilmiş çoxjanrlı musiqi müsabiqəsi Sumqayıt Regional Mədəniyyət İdarəsinə tabe olan Qara Qarayev adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdləri üçün uğurlu olub.***

"HERBEST SYMPHONIE - Berlin 2021" adlanan müsabiqədə fortepiano janrı üzrə 6-cı sinif şagirdi Aytac Vəlizadə və 5-ci sinif şagirdi Valeriya Olxovaya müsabiqənin 1-ci dərəcəli laureatı, məktəbin digər şagirdləri Səid Vəlizadə, Aysu Məmmədzadə, Ayla Pənahova və İnci Vəlizadə isə 2-ci dərəcəli laureatı adını qazanıblar.

Sumqayıtlı gənc istedadların nailiyyətinə görə onların müəllimləri Esmira Əliyeva və Sevda Məcidova da mükafata layiq görülüblər.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

Xalq qəzeti.- 2021.- 27 oktyabr.- S.14.